Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin 2025-ci il 29 oktyabr tarixli 3-27-100/3-1-215/2025 nömrəli əmri ilə təsdiq edilmişdir

**Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Rəqəmsal inkişaf və innovasiya şöbəsi haqqında**

# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Rəqəmsal inkişaf və innovasiya şöbəsi (bundan sonra - şöbə) Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra - Nazirlik) Aparatının, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlarda rəqəmsal inkişaf və innovasiyalarla bağlı fəaliyyətin koordinasiyalı şəkildə həyata keçirilməsinin təşkilini və müvafiq sahə üzrə dövlət siyasətinin hazırlanmasında iştirak edən struktur bölməsidir.

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"ni, Nazirliyin kollegiya qərarlarını və digər normativ hüquqi aktları, Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin (bundan sonra – nazir) qərar, əmr və sərəncamlarını (bundan sonra – hüquqi aktlar) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin Aparatının struktur bölmələri, strukturuna daxil olan qurumlarla və strukturuna daxil olmayan tabeliyindəki qurumlarla (bundan sonra – qurumlar), habelə dövlət qurumları, yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Nazirliyin fəaliyyət istiqamətləri üzrə rəqəmsal inkişaf və innovasiyalarla bağlı işlərin, o cümlədən müvafiq sahə üzrə tədbirlərin planlaşdırılması, icrasının əlaqələndirilməsi və monitorinqi üzrə tədbirlər görür;

2.1.2. rəqəmsal inkişaf və innovasiya, həmçinin süni intellekt sahəsi ilə bağlı konsepsiyaların, dövlət proqramlarının, strategiyaların və digər hüquqi aktların hazırlanmasında və onların həyata keçirilməsində iştirak edir;

2.1.3. rəqəmsal inkişaf və innovasiya üzrə dövlət siyasətinin formalaşdırılmasında və müvafiq qurumlarla birgə icrasında iştirak edir;

2.1.4. informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik, internet idarəçiliyi və fərdi məlumatların mühafizəsi üzrə siyasətin hazırlanmasında iştirak edir və həyata keçirilməsinin əlaqələndirilməsini təşkil edir;

2.1.5. qurumların rəqəmsal inkişaf və innovasiya üzrə müvafiq fəaliyyətlərini təhlil edir və onların fəaliyyətinin effektivliyinin və səmərəliliyinin artırılması barədə təkliflər verir;

2.1.6. rəqəmsal inkişaf və innovasiya, həmçinin kibertəhlükəsizlik sahəsində göstəriciləri müvafiq struktur bölmə ilə birlikdə təhlil edir və muxtar respublikanın müvafiq sahə üzrə beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılması istiqamətində fəaliyyəti təşkil edir;

2.1.7. Nazirliyin fəaliyyət istiqamətləri üzrə elektron xidmətlərin inkişafı üçün tədbirlər görür;

2.1.8. muxtar respublikada Data Mərkəzinin yaradılması və fəaliyyətinin təşkili ilə bağlı işlərin əlaqələndirilməsini həyata keçirir;

2.1.9. Nazirliyin aidiyyəti qurumlarının kritik informasiya infrastrukturu üzrə fəaliyyətlərini planlaşdırır, əlaqələndirir və monitorinqini həyata keçirir;

2.1.10. Kritik informasiya infrastrukturunun dayanıqlılığının artırılması, təhdidlərə qarşı cavabvermə qabiliyyətinin yüksəldilməsi ilə bağlı strategiya və proqramların hazırlanmasında iştirak edir;

2.1.11. süni intellekt texnologiyalarına əsaslanan həllərin dövlət sektorunda tətbiqinin təşviq olunması və əlaqələndirilməsi ilə məşğul olur;

2.1.12. qanunvericiliyə uyğun olaraq nazir tərəfindən şöbəyə həvalə olunmuş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.1. Şöbə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. Nazirliyin qurumlarının rəqəmsal inkişaf və innovasiya üzrə fəaliyyət planlarının hazırlanmasında iştirak edir, icrasını əlaqələndirir və müəyyən edilmiş fəaliyyət hədəflərinə müvafiq olaraq həyata keçirilməsinin monitorinqini Nazirliyin aidiyyəti struktur bölmələri ilə birlikdə təmin edir;

3.1.2. Şöbənin fəaliyyət istiqamətləri ilə əlaqəli konsepsiyaların, dövlət proqramlarının, strategiyaların və digər hüquqi aktların hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

3.1.3. qurumlarda rəqəmsal inkişaf və innovasiya ilə bağlı fəaliyyətin koordinasiyalı şəkildə həyata keçirilməsini təşkil edir, həmçinin müvafiq sahə üzrə işin icrasına nəzarət edilməsi məqsədilə təhlillər aparır, fəaliyyətin effektivliyinin və səmərəliliyinin artırılması barədə təkliflər verir və metodiki köməklik göstərir;

3.1.4. rəqəmsal inkişaf və innovasiya üzrə islahatların aparılmasında və müvafiq təkliflərin hazırlanmasında Nazirliyin aidiyyəti struktur bölmələri ilə birlikdə iştirak edir;

3.1.5. Nazirliyin illik fəaliyyətini əks etdirən hesabatların hazırlanmasında Nazirliyin aidiyyəti struktur bölmələri ilə birlikdə iştirak edir;

3.1.6. rəqəmsal inkişaf və innovasiya fəaliyyətinin dəstəklənməsi məqsədilə xarici dövlətlər və beynəlxalq təşkilatlarla birgə reallaşdırılan proqramları (layihələri) əlaqələndirir;

3.1.7. robototexnika, “bulud”, böyükhəcmli məlumatların emalı, süni intellekt, əşyaların interneti və digər rəqəmsal texnologiyalara əsaslanan həlləri və onların tətbiqi üzrə layihələrə təkliflər verir və onların həyata keçirilməsini əlaqələndirir;

3.1.8. innovasiya infrastrukturunun əsas elementləri olan inkubatorlar, innovasiya mərkəzləri, laboratoriyalar, fondlar, texnologiya parkları, tədqiqat və araşdırma mərkəzləri, texnologiya və biliklər transferi mərkəzləri və digər təsisatların yaradılması ilə bağlı təkliflər verir;

3.1.9. innovasiya fəaliyyətinə investisiyaların cəlb edilməsi üçün tədbirlər görür;

3.1.10. innovasiyalar və rəqəmsal inkişaf sahəsində beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq aparır;

3.1.11. informasiya texnologiyaları sahəsi üzrə mütəxəssislərin inkişafı və beynəlxalq sertifikatlaşdırılması üzrə təkliflər verir;

3.1.12. Nazirliyin fəaliyyət istiqamətləri üzrə yüksək ixtisaslı kadr hazırlığına dair təkliflər verir;

3.1.13. innovasiya klasterlərini müəyyənləşdirir və bu sahədə fəaliyyətin təşkili üzrə tədbirlər görür;

3.1.14. “elektron hökumət”in inkişafı və “rəqəmsal hökumət”ə keçidlə bağlı tədbirlər görür;

3.1.15. Dövlət Xidmətlərinin Reyestrində Nazirliyin xidmətlərinə dair məlumatların aktuallığını təmin edir;

3.1.16. Kritik informasiya infrastrukturu obyektlərinin fasiləsiz fəaliyyətinin təmin olunması üzrə fövqəladə hallara hazırlıq planlarını hazırlayır;

3.1.17. Kritik informasiya infrastrukturu üzrə maarifləndirmə və təlim proqramlarının təşkil edir, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiq edilməsini həyata keçirir;

3.1.18. yeni texnoloji trendlərin təhlili və tətbiqə uyğunluğunun qiymətləndirilməsi ilə bağlı təkliflər verir;

3.1.19. nazirliyin müvafiq struktur bölmələri ilə birlikdə süni intellekt sahəsində kadr potensialının inkişafı üzrə tədbirlər həyata keçirir;

3.1.20. süni intellekt sistemləri üzrə məlumatların etik və hüquqi aspektlərinə nəzarət edir, süni intellekt sahəsində ictimai məlumatlandırmanı artırır;

3.1.21. beynəlxalq təcrübənin öyrənilməsi və milli tətbiqə uyğunlaşdırılması üçün analitik materiallar və tövsiyələr hazırlayır;

3.1.22. rəqəmsal innovasiya və süni intellekt texnologiyalarına dair layihələrin icrasına nəzarət edir və səmərəliliyi qiymətləndirir;

3.1.23. rəqəmsal inkişaf və innovasiya, habelə kibertəhlükəsizlik sahəsində beynəlxalq hesabatların təhlilində iştirak edir, monitorinqlərin aparılmasını, analitik materialların və hesabatların hazırlanmasını, habelə beynəlxalq reytinq təşkilatlarına zəruri məlumatların təqdim olunmasını təmin edir;

3.1.24. “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə riayət olunması, habelə tələblərin pozulması hallarının aradan qaldırılması üçün Nazirliyin aidiyyəti struktur bölmələri ilə birgə tədbirlər görür;

3.1.25. fərdi məlumatlar haqqında qanunvericiliyin tətbiqi ilə bağlı sorğuları cavablandırır, müraciətləri araşdırır, fərdi məlumat subyektlərinə, habelə müvafiq sahədə fəaliyyət göstərən mülkiyyətçi və oparatorlara metodiki köməklik göstərir;

3.1.26. informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik, fərdi məlumatların mühafizəsi sahəsində məlumatlılıq səviyyəsinin yüksəldilməsi üzrə aidiyyəti qurumlarla birgə tədbirlər həyata keçirir;

3.1.27. internet informasiya ehtiyatlarında yayılması qanunla qadağan edilən məlumatların yerləşdirilməsinin qarşısının alınması üzrə Nazirliyin aidiyyəti struktur bölmələri ilə birgə qanunvericiliklə müəyyən olunmuş tədbirlər görür;

3.1.28. internet telekommunikasiya xidməti göstərən operatorların və provayderlərin uçotunun aparılmasını, habelə müvafiq sahədə internet provayderlərinin və operatorların fəaliyyətini əlaqələndirir;

3.1.29. Nazirlik və tabeliyindəki qurumların kritik informasiya obyektlərinin təhlükəsizlik planlarının işlənib hazırlanmasında iştirak edir ;

3.1.30. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş, habelə Nazirliyin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirir.

## 4. Şöbənin hüquqları

4.1. Şöbə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Nazirliyin struktur bölmələrinə və qurumlarına müvafiq sorğular ünvanlayır və onlardan müvafiq məlumatları (sənədləri) alır;

4.1.2. Şöbənin fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə keçirilən müzakirələrdə, Nazirlikdə və qurumlarda yaradılan komissiyaların, işçi qrupların, məşvərətçi və əlaqələndirici orqanların işində iştirak edir;

4.1.3. Nazirliyin mütəxəssislərinin müxtəlif təlim kurslarında, forum və konfranslarda iştirakına dair təkliflər verir;

4.1.4. Nazirliyin Aparatının struktur bölmələri, dövlət qurumları, bələdiyyələr, qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar, xarici ölkələrin aidiyyəti dövlət qurumları, yüksək texnologiyalar sektoru üzrə fəaliyyət göstərən yerli və xarici özəl şirkətlər, elmi-tədqiqat-institutları, təhsil ocaqları, kütləvi informasiya vasitələri və ictimai təşkilatlarla qarşılıqlı işgüzar əlaqələr qurur, onlarla birgə müvafiq tədbirlər görür;

4.1.5. Nazirliyin Aparatının struktur bölmələrinə, qurumlara, idarə və təşkilatlara zəruri məlumatlar (sənədlər) barədə sorğu verir və onlardan belə məlumatları (sənədləri) alır;

4.1.6. Nazirliyin Aparatının struktur bölmə rəhbərlərinin razılığı ilə bu bölmələrin işçilərini sənədlərin hazırlanmasına, həmçinin şöbənin üzərinə qoyulmuş vəzifələrə uyğun olaraq keçirdiyi tədbirlərin yerinə yetirilməsinə cəlb edir;

4.1.7. İnformasiya təhlükəsizliyi sahəsində pozuntularla bağlı tədbirlər görülməsi üçün təkliflər vermək və inzibati tədbirlərin tətbiqi ilə bağlı qanunvericiliyə əsasən təkliflər hazırlamaq;

4.1.8. Kritik informasiya obyektlərində yoxlamalar və monitorinqlər aparır;

4.1.9. sərgilərin, forumların, seminarların və konfransların keçirilməsində iştirak edir və belə tədbirlərdə iştirak barədə təkliflər verir;

4.1.10. Şöbə tərəfindən görülən işin gedişatı və görülən iş çərçivəsində nəticələr barədə mütəmadi olaraq Nazirliyin rəhbərliyinə məruzə edir;

4.1.11. hüquqi aktların tələblərinin pozulması hallarının aradan qaldırılması ilə bağlı tədbirlərin görülməsi üçün təkliflər verir, habelə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə tədbirlər görür;

4.1.12. rəhbərliyin razılığı ilə fəaliyyət istiqamətləri üzrə beynəlxalq təşkilatların və işçi qrupların fəaliyyətində iştirak edir;

4.1.13. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş, o cümlədən vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirir.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və ştat vahidlərinin sayı nazir tərəfindən təsdiq edilir.

5.2. Şöbəyə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şöbə müdiri rəhbərlik edir.

5.3. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Şöbənin əməkdaşları, o cümlədən nəzərdə tutulduğu halda, şöbə müdirinin müavini (müavinləri) və sektor müdiri (müdirləri) nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və onun fəaliyyətinə rəhbərliyi və nəzarəti həyata keçirir;

5.5.2. işçilər arasında vəzifə və iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir və şöbə işçilərinin vəzifə təlimatlarının hazırlanmasını təmin edir;

5.5.3. Şöbə işçilərinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə, əmək və icra intizamına nəzarət edir;

5.5.4. Şöbəyə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra olunmasına nəzarəti həyata keçirir və icrası barədə rəhbərliyə hesabat verir;

5.5.5. Şöbə üzrə Nazirliyin kollegiyasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini rəhbərliyə təqdim edir;

5.5.6. Şöbə tərəfindən hüquqi aktlarda nəzərdə tutulmuş aidiyyəti tədbirlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.7. Şöbədə işçilərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, həvəsləndirilməsi, intizam tənbeh tədbirlərinin tətbiq olunması ilə bağlı Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.5.8. Şöbənin işçilərinin peşə hazırlığının yüksəldilməsi və ixtisaslarının artırılması məqsədilə kurslarda, təlimlərdə iştirakı barədə Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.5.9. Şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin Aparatının struktur bölmələrindən və qurumlarından zəruri sənədləri və məlumatları alır;

5.5.10. Şöbəyə daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericiliklə nəzərdə tutulmuş qaydada baxılmasını və onların vaxtında və düzgün cavablandırılmasını təşkil edir;

5.5.11. Şöbədə kargüzarlıq işinin "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun aparılmasını təmin edir;

5.5.12. Şöbədə məxfilik rejimini təmin edir və şöbənin fəaliyyətində dövlət sirlərinin qorunması tədbirlərinin təmin edilməsinə görə cavabdehlik daşıyır;

5.5.13. Şöbənin fəaliyyətini Nazirliyin Aparatının struktur bölmələri və qurumlarla əlaqələndirir;

5.5.14. səlahiyyətinə aid hissədə icrası məcburi olan göstərişlər verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

5.5.15. Şöbənin müvafiq hesabatlarını təsdiq edir;

5.5.16. Nazirlikdə keçirilən kollegiya iclaslarında, aidiyyəti müşavirələrdə və yığıncaqlarda və elmi-texniki şuranın iclaslarında iştirak edir;

5.5.17. Şöbənin fəaliyyəti ilə bağlı rəhbərliyin tapşırıqlarını yerinə yetirir;

5.5.18. Şöbəni təmsil edir;

5.5.19. Nazirliyin rəhbərliyinin tapşırığı ilə ali hakimiyyət orqanlarında, digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarında və dövlət orqanlarında, beynəlxalq təşkilatlarda, xarici ölkələrdə Nazirliyi təmsil edir və Nazirliyin maraqlarını müdafiə edir.

5.6. Şöbənin əməkdaşları əmək və icra intizamına əməl edir, bu Əsasnamənin tələblərinin pozulmasına, habelə vəzifələrin vaxtında və düzgün icra edilməsinə görə məsuliyyət daşıyırlar.

5.7. Şöbənin hər bir əməkdaşı ona məlum olan dövlət sirri, yaxud xidməti sirr təşkil edən məlumatların mühafizə olunmasına görə öz vəzifəsinə və səlahiyyətlərinə uyğun olaraq məsuliyyət daşıyır.